## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 371.

***Şəfiqə Veys qızı Zülfüqarova,***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Universitetinin baş müəllimi*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÜNYA TƏHSİL SİSTEMİNƏ İNTEQRASİYASI

***Шафига Вейс гызы Зульфугарова,***
*доктор философии по педагогике*
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ИНТЕГРАЦИЯ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ В МИРОВУЮ ОБРАЗОВАТЕЛЬНУЮ СИСТЕМУ

***Shafiga Veys Zulfugarova,***
*PhD in Pedagogy, senior teacher of*
*Azerbaijan State Pedagogical University*

# THE İNTEGRATİON OF THE EDUCATİON SYSTEM OF HİGHER EDUCATİON İNSTİTUTİONS İN THE WORLD

**Xülasə:** Elmi məqalədə Boloniya Deklarasiyasının əsas müddəalarına daxil olan anlayışların məzmunu açıqlanaraq tədqiqata cəlb olunmuşdur.
***Açar sözlər:*** *ali təhsil, təhsil sistemi, inteqrasiya, sərəncam, ümumavropa, bakalavr, magistr*

**Резюме:** В научной статье было раскрыто и исследовано содержание основных положений Болонской декларации.
***Ключевые слова:*** *высшее образование, система образования, интеграция, указ, общеевропейское, бакалавр, магистр*

**Summary:** In the scientific article, the contents of the concepts of the basic provisions of the Bologna Declaration were disclosed and investigated.
***Keywords:*** *higher education, the education system, integration, orders, European, bachelor's, master's*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 04 oktyabr 2004-cü il tarixdə Azərbaycan müəllimlərinə ünvanladığı təbrik məktubunda deyildiyi kimi “... iftixar hissi ilə qeyd olunmalıdır ki, zəngin maarifçilik ənənələrinə malik təhsil sistemimiz aparılan islahatlar nəticəsində bu gün müasir beynəlxalq standartlara cavab verməkdədir. Azərbaycan müəllimləri Birləşmiş Millətlər Təşkilatının “Təhsil əsri” – “İntellekt əsri” elan etdiyi XXI yüzillikdə milli təhsilin davamlı inkişafı və dünya təhsil sisteminə inteqrasiyası üçün əllərindən gələni edəcək, bu sahədə artıq dönməz xarakter almış islahatlar prosesini uğurla davam etdirəcəkdir. (7, 23)

Hazırda təhsil sistemində müxtəlif problemlər üzrə 16 dövlət proqramı yerinə yetirilir. Onların içərisində ali təhsil sistemində islahatların və modernləşmənin əsas istiqamətlərinin müəyyənləşdirilməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cənablarının 31 yanvar 2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası” və 22 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq olunmuş “2009-2013-cü illər Azərbaycan Respublikasının ali təhsil

sistemində islahatlar üzrə dövlət proqramı" xüsusi yer tutur.

Qeyd etmək lazımdır ki, bütün dünyaya öz müstəqilliyini bəyan etmiş Azərbaycan Respublikası tamamilə yeni iqtisadi münasibətlər kursunu götürərək öz təhsil sisteminin inkişaf prioritetlərini dünyada, o cümlədən də Avropa məkanında gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirir, həyata keçirilən islahatların əsas ana xəttini məhz elə bu prinsiplər təşkil edir. On ildən artıq müddətdir ki, Avropa təhsil birliyi "Bolonya prosesi" deyilən önəmli bir şüar altında yaşayır. Bolonya prosesinin əsl mahiyyəti perspektiv illərdə Avropada ali təhsil zonası adlanan və fundamental fəaliyyət prinsiplərinin eyniliyinə əsaslanan ümumavropa ali təhsil sisteminin formalaşdırılmasından ibarətdir. Başqa sözlə, Bolonya prosesi Avropada ali təhsilin inkişafının bir sıra yeni prinsiplər üzərində qurulan vahid təhsil məkanının formalaşdırılmasını nəzərdə tutan magistral xətdir.

1999-cu ilin iyun ayında İtaliyanın Bolonya şəhərində 30 Avropa ölkəsinin təhsil nazirləri Ümumavropa ali təhsil sisteminin gələcək inkişaf tendensiyalarının rəsmi təsdiqləməsi üçün hazır olduqlarını və bu barədə rəsmi sənəd imzalamışlar. 19 may 2005-ci il tarixdə Norveçin Berqen şəhərində keçirilən konfransda Azərbaycan Bolonya prosesinə qoşulmuş və bu prosesin həqiqi üzvü seçilmişdir. Boloniya prosesinin daha aydın dərk olunması üçün Bolonya Deklarasiyasının əsas müddəalarına nəzər salaq: ikipilləli təhsil sisteminin tətbiqi, akademik kredit sisteminin tətbiqi, təhsilin keyfiyyətinə nəzarət sisteminin qurulması (transmilli standartların müəyyənləşdirilməsi), mobilliyin genişləndirilməsi (sərbəst formada hərəkət etmə), Avropa dillərinin birində diploma əlavə edilən xüsusi sənədin verilməsi, məzunların işə düzəlmələrinin təmin olunması, Avropa təhsil sisteminə cəlb olunmanın təminatı, təlimin sosial yönlüyünün təmin edilməsi (ömür boyu təhsil).

Məlum olduğu kimi, Azərbaycanda hələ xeyli əvvəl ali təhsil pilləsində kadr hazırlığı iki mərhələli (bakalavr - 4 il, magistratura - 2 il) strukturu qəbul olunmuş və mərhələlər üzrə Hökumət tərəfindən təsdiq edilmiş ixtisas klassifikatoruna uyğun kadr hazırlığına başlanılmışdır. 2009-cu il 19 iyun tarixdə qüvvəyə minmiş «Təhsil haqqında» Azərbaycan Respublikasının qanununda Azərbaycan Respublikasında ali təhsilin üç səviyyəsi, yəni bakalavriat, magistratura və doktorantura müəyyən edilmişdir. (1, 25) Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbləri nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi pedaqoji kadrların hazırlığı həyata keçirilir. Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislər hazırlanır.

Bakalavriatı bitirən məzunlara «bakalavr» ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsili almış məzunların əmək fəaliyyəti sahəsi elmi tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyəti istisna olunmaqla, bütün digər sahələri əhatə edir. Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyət, elmi və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Magistraturanı bitirən məzunlara müvafiq qaydada «magistr» ali-peşə ixtisas dərəcəsi verilir. Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə müəyyən edilmiş qaydada həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd-diplom verilir. Ali təhsil müəssisələrində və digər təşkilatlarda çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Bir sözlə, Azərbaycan ali təhsil və elmi-pedaqoji kadr hazırlığı sisteminin struktur baxımından bu cür istiqamət götürməsi Bolonya prosesinə doğru atılan ən önəmli addımlardan biri kimi qiymətləndirilməlidir. Bolonya prosesinin qarşıya qoyduğu əsas məqsədlərdən biri ali təhsildə kreditli təhsil tədris sisteminin tətbiqidir. Təhsil Nazirliyi tərəfindən bu sahədə ciddi tədbirlər həyata keçirilmiş və cari tədris ilindən bütün dövlət ali təhsil müəssisələrində (xüsusi ali təhsil müəssisələri istisna olunmaqla) və qeyri-hökumət ali təhsil müəssisələrinin əksəriyyətində kreditli tədris sisteminin tətbiqinə başlanmışdır.

Ali təhsildə kredit Kredit hər hansı bir fənnin öyrənilməsi başa çatdıqdan sonra öyrənin auditoriya və auditoriyadankənar yüklənmə də daxil olmaqla qəbul olunmuş əmək tutumluluğunu əks etdirən vahid ölçüdür. Öyrənən krediti mühazirə, seminar, laboratoriya məşğələlərində iştirakı ilə, həm də müstəqil, yəni auditoriyadan kənar tapşırıqlar yerinə yetirməklə qazana bilir. Yəni əgər tələbə həftədə hər hansı bir fənnə 3 akademik vaxt sərf edirsə, deməkо fənn 3 kreditli fəndir və tələbə semestrin nəticələrinə görə həmin fəndən müvəffəq qiymət alarsa, onda o, 3 kredit qazanmış olur.

Deməli, «kredit sistemi» öyrənənin təhsil müddətindəki fərdi planı, «kredit» isə öyrənənin tədrisdə əldə etdiyi müvəffəqiyyətin kəmiyyət göstəricisidir. Azərbaycanda ali təhsil müəssisələrində bir tədris ilində nəzəri tədris (auditoriya ilə bağlı) həftələrinin sayı 30 həftə (hər semestr 15 həftə) qəbul edilmişdir. Auditoriya ilə bağlı tədris işinin həcminə mühazirələrin oxunması, laboratoriya, məşğələ və seminar dərslərinin orta sıxlığı (27-30) saat arasında dəyişir. Bunları nəzərə alaraq, məsələn Azərbaycan Memarlıq və İnşaat Universitetində öyrənənlərin kredit qazanmaqla bağlı fəaliyyətini aşağıdakı kimi ümumiləşdirə bilərik. Hər bir tələbəyə dərslər başlanan kimi bir semestr (və ya bir tədris ili) üçün tədris planları verilir və tədris planlarına daxil olunan hər bir fənn üzrə toplanılacaq kreditlərin sayı və vaxtı göstərilir. Bir kredit həftəlik dərs yükünün bir saatına bərabər olduğundan bir semestrdə tələbə 30 kredit yığa bilər. Ali məktəblərdə təlim nailiyyətlərinin qiymətləndirilməsində (kreditlərin yığılması) 100 ballıq şkaladan istifadə olunur.

Tələbə semestr ərzində 100 balın maksimum 50 balını, yekun imtahanlarda isə 50 balını yığa bilər. Sonda, semestr ərzində baxılan fənn üzrə toplanmış ballar toplanır (bu tələbə yekun imtahanından minimum 17 bal topladıqda həyata keçirilir) və öyrənən 51-100 bal arası bal topladıqda fəndən krediti toplamış hesab edilir. Öyrənən hər hansı fəndən yekunda 0-50 bal arası qiymət aldıqda həmin fənn üzrə krediti qazanmamış hesab edilir. Bu halda öyrənənə həmin fəndən kredit əldə etmək üçün yenidən imtahan verməyə icazə verilmir, həmin fəndən öyrənən mütləq bir semestr oxuyub yenidən imtahan verməlidir. Bəzi ali məktəblərdə hazırda «yay semestri» adlanan üçüncü bir semestr təşkil edilir. Öyrənən hansı fəndən tələb olunan krediti toplaya bilməyibsə, onlar tədris planında həmin fənnin mənimsənilməsi üçün nəzərdə tutulmuş saatlar həcmində əlavə dərsləri dinləyir və yenidən yekun imtahanına buraxılırlar. Beləliklə, qeyd etmək lazımdır ki, bakalavr pilləsində öyrənən (8 semestrdə) 210-240 kredit toplanmalıdır. Əgər öyrənən bakalavriat pilləsində oxuduğu 4 il (8 semestr) müddətində müəyyən edilmiş krediti qazana bilməmişdirsə, ona növbəti üç il müddətində borclu qaldığı fənlərdən kreditləri toplamağa imkan verilir. Həmin müddətdə tələb olunan kreditlər yığılmadıqda öyrənən müəyyən olunmuş bütün imtiyazları itirir. Öyrənən ali təhsil müəssisəsində dövlət hesabına təhsil alırsa və müəyyən edilmiş müddətdə kreditləri yığa bilmirsə, bu halda o, təhsilini yalnız ödənişli əsaslarla davam etdirə bilər.

**Problemin aktuallığı:** Ali təhsil müəssisələrinin dünya təhsil sisteminə inteqrasiyası məsələləri aktual olaraq qalır.

**Problemin elmi yeniliyi:** Deklarasiyanın ilk müddəası Avropa zonası üçün ali təhsilin vahid formalı strukturuna keçid mənasını daşımaqla, gələcəkdə ali təhsildə ümumavropa standartlarının müəyyənləşdirilməsi kimi vacib bir missiyanı öz üzərinə götürmüşdür. Elmi məqalədə bu deklarasiyanın mühüm aspektləri işlənilmiş və tədqiqata cəlb olunmuşdur.

**Problemin tətbiqi əhəmiyyəti:** Elmi məqalədə istifadə olunan fikirlərdən ali təhsil müəssisələri üçün metodik vəsaitin hazırlanmasında, konfrans və dəyirmi masada məruzə olaraq istifadə etmək mümkündür.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Qanun, 2009.
2. Ali təhsildə kreditli tədris sistemi. Bakı: Qafqaz Universiteti, 2002.
3. Ağayev Ə., Hüseynli S., İbadova M., Məmmədova İ. Təhsilin konseptual problemləri. Bakı: Azərbaycan Respublikası Təhsil Problemlər İnstitutu, 2008.
4. Abbasov O. A. Təhsilin idarə olunması. Bakı: MM-S, 2016.

5. Azərbaycanda və Böyük Britaniyada təhsil liderliyi və siyasəti: Məktəbin inkişafı üçün potensialın artırılması Tədqiqatçı Əlaqələri seminarının materialları. Bakı: Xəzər Universiteti, 2015.

6. Abbasın T. Təhsil məkanının Bolonya modeli Avropa ali təhsil sistemlərinin transformasiya amili kimi. // Pedaqoji Universitet Xəbərləri, 2008, № 3

7. Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı: Təhsil, 2005.

**E-mail:** shafiqaz@mail.ru

**Rəyçilər:** *ped. ü. fəls. dok.,dos.*Ə. İsmayılxanova
*ped. ü. fəls. dok.,dos.* H. Cəfərov
**Redaksiyaya daxil olub:** 25.11.2018